# Ağdamda İşğal və Zəfər muzeyləri yaradılır



***2021-ci il mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Ağdam İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimi keçirilmişdir. Bu muzeylər kompleksi ümumilikdə 22 hektara yaxın ərazini əhatə edəcək. Ağdam şəhərinin müəyyən bir hissəsinin dağıdılmış vəziyyətdə qalması və Ermənistanın işğalçılıq siyasətinin ümumi mənzərəsini əks etdirən açıq səma altında memorial kimi nümayiş etdirilməsi nəzərdə tutulur.***

Bu kompleks müasir üslubda dizayn edilmiş muzey binası, xatirə gölü, memorial bağ və dağıntılardan ibarət olacaq. Ağdam Zəfər muzeyi kompleksi 5 hektara yaxın ərazini əhatə edəcək və bu bölmə müasir dizayna malik bina, Bayraq meydanı və Zəfər arenası hissələrindən ibarət olacaq. Ağdamda dövlət başçısı tərəfindən bayrağın qaldırıldığı ərazidə Bayraq meydanı təşkil ediləcək. Muzeyin binası və arena bu meydanın yaxınlığında yerləşəcək.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bu muzeylər barədə rəsmi mətbuata müsahibəsində deyib: “Cənab Prezident 2021-ci il mayın 28-də Ağdama səfəri zamanı həmin kompleksin təməlini qoydu. Kompleks üç komponentdən ibarətdir, İşğal muzeyindən başlayır və Zəfər muzeyində bitir. Onların arasında 18 hektarlıq bir bağ var. O bağı memorial bağ adlandırmışıq. Bu bağ açıq səma altında olacaq. Biz bütün şəhəri müasir şəkildə bərpa etsək də, həmin o bağda xarabalıqlar, dağıdılmış binalar olacaq. Biz oranı restavrasiya deyil, konservasiya edəcəyik. Onları olduğu kimi saxlayacağıq ki, gələcək nəsillərə bir örnək kimi, nümunə kimi qalsın və mənfur düşmənin xalqımızın başına gətirdiyi faciələrin miqyası bilinsin, eyni zamanda, müharibənin nə qədər acı nəticələrə gətirib çıxardığını anlada bilsin”.

E. Hüseynov əlavə edib ki, dağıntılar arasında müvafiq təmizlik, abadlıq işləri görüləcək, cığırlar çəkiləcək, binalar haqqında müəyyən məlumatları əks etdirən “augmented reality – gücləndirilmiş virtual reallıq” texnologiyasından istifadə etməklə mobil aplikasiyalar tətbiq olunacaq. Məqsəd odur ki, İşğal muzeyi, Memorial Bağ və Zəfər muzeyi Azərbaycan xalqının birinci və ikinci Qarabağ müharibəsində keçdiyi yolu göstərə bilsin. Burada XX əsrin dəhşətli Xocalı soyqırımı, Ağdamın işğalı, bununla bağlı video-audio materiallar, eksponatlar əks olunacaq. Təsəvvür edin, İşğal muzeyindən çıxan insan Memorial bağı gəzərkən 27 illik işğal dövrü haqqında ətraflı məlumat alacaq. Yəni insanlar o dağıntıların arasından keçərkən, sanki həmin zamandan keçir və proseslər gözləri önündə canlanır.

Bağın sonuna yaxınlaşdıqca Zəfər muzeyi, Bayraq meydanı və Zəfər arenasının olduğu əraziyə daxil olurlar. Həmin yerlər 27 ildən sonra 44 günlük Vətən müharibəsini, şanlı qələbəmizi simvolizə edəcək. Zəfər muzeyində hər bir kəndin, qəsəbənin, şəhərin necə azad edilməsi faktlarla göstəriləcək. Döyüşlər şəkillərlə, videolarla əks etdiriləcək. O cümlədən şəhidlərimizin əziz xatirəsini əbədiləşdirmək üçün lövhə olacaq.

Nazirlikdən bildirilmişdir ki, Ağdama aid maddi-mədəniyyət nümunələri, əşyalar, şəkillər, videolar və digər materiallara sahib olan, həmçinin Ağdamla bağlı xatirələri olan vətəndaşlar Ağdam İşğal və Zəfər muzeylərinin fondunun yaradılmasında iştirak edə bilərlər.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .-2022.- 15 iyul.- S.4.